# Erməni vandalizmi İrəvanda, Qarabağda, Zəngəzurda...

## Erməniləri artıq bütün dünyada vandal, qaniçən, goreşən millət kimi tanıyırlar...

**Dekabrın 1-də Ermənistanın “Panorama.am” saytında “İrəvan meriyası vandalizmlə məşğuldur” adlı yazını görəndə, düzünü deyim ki, çaşıb qaldım. Əslində başlıq çox şey deyirdi. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinin 20 faizində vandalizm törətdiyini, gözlə görünən hər şeyi darmadağın etdiyini, məscidləri, məktəbləri, muzeyləri yerlə-yeksan etdiyini, hətta qəbirləri söküb meyitlərin qızıl dişlərini sökdüyünü bilirdim. Xarici jurnalistlər Ağdamı Qarabağın Xirosiması adlandırmışdılar. Füzulidə Azərbaycan əsgəri bayraq sancmağa bir salamat bina tapmamışdı. Bəs İrəvan meriyası hansı vandalizmə yol vermişdi? Beləcə, yazını diqqətlə oxudum.**

Gördüm ki, sayt İrəvanda meriya tərəfindən Yeni il qabağı şəhəri bəzəmək üçün binaların divarlarına bir mismar çalınmasını vandalizm aktı kmi qələmə verir, bununla bağlı böyük hay-həşir qoparır. Düşündüm ki, bunlara baxanda bizim dərdimiz daha böyükdür. Ermənilər işğal dövründə bizim bütün Qarabağı və Şərqi Zəngəzuru viran qoyub, söküb, dağıdıb, daşıyıb, yandırıb...

Bu viranəliklərini görəndə, əsil varvarlarla, sivilizasiyadan geri qalmış qəribə məxluqlarla qarşılaşdığımızı düşünürük. Ancaq bütün bunları ermənilər edir. Onlar üçün fərqi yoxdur, ya İrəvanda, ya da Ağdamda. Əsas odur ki, vandalizm, dağıdıcılıq millətin qanındadır.

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci ilin noyabrında Kəlbəcər rayonunun Ermənistanın işğalından azad olunması ilə bağlı xalqa müraciətində deyirdi: “Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik... Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb... Kəlbəcərdə mənfur düşmən digər cinayətlər də törədib... Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan”.

Kəlbəcəri tərk edən ermənilərin təbiəti, heyvanları məhv etdikləri o zamankı videokadrlardan izləmək mümkündür. Bu ürəkağrıdan səhnələri, şübhəsiz ki, erməni medasının nümayəndələri də görüblər. Təəssüf ki, o zaman nə “Panorama.am”, nə də digər bir erməni mediası bu vəhşiliklərlə bağlı səsini çıxarmadı. Əgər o zaman Ermənistan mediası Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin törətdikləri vandalizm aktlarını pisləsəydi, bu gün İrəvandakı binalara qarşı vandalizm hərəkətləri də olmazdı. İndi bu barədə danışmaq cöx gecdir... Erməniləri artıq bütün dünyada vandal, qaniçən, goreşən millət kimi tanıyırlar...



1918-ci ildə İrəvan şəhərinin və digər torpaqlarımızın Ermənistana verilməsindən sonra bu ərazilərdə milli kimliyimizə divan tutub. Ermənistan dövləti bütün bu ərazilərdə Azərbaycan xalqının izini silməyə çalışıb. İrəvan şəhəri də istisna təşkil etməyib. Şəhərdəki binalar, tarixi, dini və mədəni abidələrimiz dağıdılıb, yerində yeni erməni abidələri tikilib. Bu proses günümüzə qədər davam edir. Odur ki, hazırda İrəvan şəhərindəki ən qədim erməni maddi-mədəni irs nümunələrinin yaşı heç 200 ilə də çatmır.

Tarixdən yaxşı məlumdur ki, İrəvan şəhəri yaranandan XX əsrin əvvəllərinə qədər burada azərbaycanlılar yaşayıblar. XIX-XX əsrlər ərzində indiki Ermənistanın ərazisində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirilib. Azərbaycanlılar doğma tarixi-etnik torpaqlarından didərgin salınıb, kütləvi qətl və qırğınlara məruz qalıb, Azərbaycan xalqına məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılaraq viran edilib. Nəticə etibarilə, Azərbaycan xalqının İrəvan şəhərindəki İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı Bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və digər dini və tarixi abidələri məhv edilib.

Hazırda İrəvanda mövcud olan iki məscidi – Hacı İmamverdi məscidi və Göy məscidi isə Ermənistan fars məscidi adlandıraraq taleyin hökmünə buraxıb. XVII əsrə aid olan Hacı İmamverdi məscidi tamamilə yox olmaq üzrədir. İrəvanın 2006-cı ildə təsdiq edilmiş baş planında fars memarlığı kimi təqdim olunan azərbaycanlılara məxsus memarlıq nümunələrinin yerləşdiyi altı ərazi göstərilib. 2006-cı ildə həmin ərazilərin ümumi ölçüsü 29 hektar olub. Onlardan bu gün yalnız Təpəbaşı hissəsi (16 hektar) qalmaqdadır. Cəmi 16 il ərzində Ermənistanda Azərbaycan xalqına məxsus memarlıq üslubunda tarixi şəhər sayıla biləcək 13 hektar sahə tamamilə məhv edilərək yerində müxtəlif infrastrukturlar inşa olunub.

Bu gün İrəvan şəhərinin tarixini özündə əks etdirən Təpəbaşı məhəlləsi də məhv olmaq və Yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir. Ermənistan rəhbərliyi artıq bir müddətdir ki, Təpəbaşını tamamilə dağıdaraq yerində müasir yaşayış binaları inşa etməyi planlaşdırır. Bu ilin yayında Azərbaycanın bir qrup alimi, ziyalısı və ictimai xadimi tərəfindən bununla bağlı UNESCO-ya müraciət ünvanlanıb. Təəssüf ki, indiyədək Qarabağda törədilmiş erməni vandallığına biganə qalmış bu mədəni irs təşkilatının İrəvandakı abidələrimizlə bağlı narahatlıqlarımıza qulaq asacağına inanmaq çətindir...

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 7 dekabr.- S.4.